# Televiziyalarımız

## hər şeydən öncə dövlət maraqlarını, xalq mənafeyini nəzərə almalıdır...

**Bu günlərdə Azərbaycan televiziyasının yaranmasının 55 ili tamam oldu. Yubiley həm də onunla əlamətdar oldu ki, həmin gün, yəni 2011-ci il fevralın 14-də "Mədəniyyət" kanalı fəaliyyətə başladı. İnsanların bu hadisəyə bu dərəcədə nikbinliklə yanaşması əsassız deyil. Hesab edilir ki, telekanal üzərinə düşən missiyanı ləyaqətlə yerinə yetirəcək, mədəniyyətimizin ən gözəl nümunələrini Azərbaycan ailəsinə çatdıracaq.**

**Təbii ki, bu, işin birinci tərəfidir. Əsas məqam ondan ibarətdir ki, dünya ölkələri bu proqramı izləməklə Azərbaycan həqiqətləri barədə zəngin məlumat toplayacaq, mədəniyyətimizin yaratdığı xarüqələrə heyran qalacaqdır.**

Sual oluna bilər: "Məgər bu, respublikamızda yaradılan ilk televiziya kanalıdır?! İndiyədək fəaliyyətdə olan AzTV, ondan sonra yaradılan ANS, Lider, Space, ATV, İctimai və s. telekanallar məgər bu funksiyaları həyata keçirmirdi?!"

Əlbəttə, onların hər birinin bu sahədə yaddaqalan, təqdir edilən uğurlu cəhdləri çox olub. Ancaq etiraf etməliyik ki, televiziyalarımıza göstərilən etimad, bəslənilən ümid həmişə özünü tam doğrultmayıb.

Məlumdur ki, Azərbaycanın bir çox sahələrdə dünyanın əksər ölkələrinin onilliklər boyu qazandığı nailiyyətləri qısa zaman kəsiyində əldə etməsi beynəlxalq miqyasda ölkəmizin kifayət qədər böyük nüfuz sahiblərindən birinə çevrilməsində mühüm rol oynamışdır. Bu, istər iqtisadiyyat, siyasət və demokratiya, istərsə də digər mühüm sahələr üzrə qazanılmış nailiyyətlərə şamil oluna bilər.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının bu gün onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi isə Azərbaycanın qazandığı bu nailiyyətlərin miqyasını genişləndirməkdə, ölkəmizin liderlər cərgəsində olmasını təmin etməkdədir.

Demokratik inkişaf yolu seçən Azərbaycanda bu gün ictimai-siyasi sabitlik möhkəm təmələ söykənməkdə, insanların iqtisadi azadlığı, yüksək maddi rifah halı, vətəndaş-cəmiyyət münasibətlərinin ahəngdarlığı, şəxsiyyətin mənafelərinin, hüquq və azadlıqlarının maksimum səviyyədə qorunması, qanunun aliliyi prinsipi də təmin olunmaqdadır.

Bütün bunların məntiqi nəticəsi olaraq Azərbaycanda həm də Avratlantik məkana sürətli inteqrasiya fonunda demokratikləşmənin əsas elementlərindən biri kimi çıxış edən söz və fikir azadlığının bərqərar olması, azad medianın inkişafı üçün hərtərəfli şərait yaradılmışdır.

Təsadüfi deyil ki, ümummilli liderin şah əsərlərindən biri sayılan müstəqil Azərbaycanın Konstitusiyasında söz və mətbuat azadlığı təsbit olunmuş, dövlət tərəfindən kütləvi informasiya vasitələrinin inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük qayğı göstərilmişdir. İndi də davam etməkdə olan bu qayğının və yaradılan şəraitin nəticəsidir ki, Azərbaycanda dövlət qeydiyyatından keçən KİV-in sayı dörd minə çatmaqdadır.

Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" isə kütləvi informasiya vasitələrinin mövcud problemlərinin aradan qaldırılmasında mühüm rol oynamaqla bərabər, onların inkişaf göstəricilərinin müasir dövrün tələblərinə uyğunlaşdırılması istiqamətində də kifayət qədər böyük əhəmiyyət daşıyır.

Bütün bunlar Azərbaycanda media azadlığının demokratik şəraitdə inkişafına şərait yaradıldığını və fikir plüralizminin bərqərar olduğunu əyani şəkildə nümayiş etdirməkdədir. Ancaq təəssüf ki, bu fikir plüralizmindən, azad medianın inkişafı üçün yaradılan şəraitdən bəzən sui-istifadə etməyə çalışan, jurnalistikanın adına xələl gətirən media orqanlarına da rast gəlmək mümkündür ki, bunlara bariz nümunə kimi "reket qəzetlər" adını qazanmış mətbu nəşrləri göstərmək olar.

Lakin günümüzün reallığı göstərir ki, media sahəsində mövcud problemlər təkcə mətbu nəşrləri əhatə etmir. Elektron media sahəsində bu gün elə problemlərə rast gəlmək mümkündür ki, onların yaratdığı fəsadlar heç də "reket qəzetlər"in cəmiyyətə vurduğu ziyanlardan geri qalmır və bir çox hallarda miqyasına görə onları ötüb keçir.

Xüsusən də ictimai rəyin formalaşması və ona təsir baxımından kifayət qədər böyük imkanlara malik yerli teleradio kanallarında efirə gedən bir sıra verilişlərin milli-mənəvi dəyərlərin qorunması, gənc nəslin tərbiyəsi, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsi və bu kimi digər məqamlar baxımından heç də günümüzün tələblərinə cavab verməməsi olduqca ağrılı bir problem kimi özünü qabarıq büruzə verməkdədir.

Bu mənada, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr" adlı geniş təhlili məqaləsi xüsusi aktuallıq kəsb etməklə bərabər, həm də bir sıra televiziya verilişləri sahəsində cəmiyyətin dərin narahatlığına səbəb olan məsələlərin həllində mesaj timsalı rolunu oynayır.

Akademik Ramiz Mehdiyevin "Azərbaycan" qəzetinin 2 oktyabr sayında dərc olunan bu məqaləsi teleefir məkanında mövcud nöqsan və çatışmazlıqları kompleks şəkildə ortaya qoymuş və teleproqramların heç də hamısının ictimai maraqlara xidmət etmədiyini göstərmişdir. Ümumiyyətlə, sözügedən məqalənin Azərbaycanın telemәkanını elmi əsaslarla silkələməsi, onun milli-mənəvi dəyərlərin qorunması, ictimai maraqların ön planda tutulması baxımından bir əsas, istiqamətverici konsepsiya kimi də dəyərləndirilməsi mümkündür.

Məqalə böyük bir Azərbaycan ziyalısının ictimaiyyətə yerində və vaxtında edilən bir çağırışı olmaqla yanaşı, cəmiyyətimizin efir məkanına real münasibətinin əks olunması prizmasından da kifayət qədər aktual xarakter daşıyır. Teleefir məkanında yaranan problemlərdən bəhs edərkən akademik Ramiz Mehdiyev haqlı olaraq ilk növbədə televiziya verilişləri arasında ciddi bir disbalansın yarandığını vurğulayır: *"Məlum olduğu kimi, hal-hazırda dünyanın aparıcı televiziya və radio kanalları müasir dövrün tələblərini nəzərə alaraq fəaliyyətlərində ciddi dəyişikliklər edir, daim yeniləşir, auditoriyasını, ictimai rəyə təsir imkanlarını genişləndirirlər.*

*Balanslaşdırılmış proqram siyasəti, yüksək efir mədəniyyəti, ictimai maraqlara xidmət, maarifləndirmə, operativ, obyektiv, hərtərəfli məlumatlandırma teleradio yayımı həyata keçirən qurumun müvəffəqiyyətinin əsas şərtləridir. Azərbaycan televiziya və radio kanallarının monitorinqi göstərir ki, maarifləndirici, məlumatlandırıcı və əyləncə funksiyaları arasında ciddi disbalans yaranmış, peşəkarlıq, yaradıcılıq, yeniliklərin tətbiqi, milli-mənəvi dəyərlərin qorunması kimi məsələlər teleradio rəhbərlərini o qədər də maraqlandırmır".*

Bəzi teleradio rəhbərlərinin milli-mənəvi dəyərlərin qorunmasını arxa plana keçirməsi isə bu gün televiziya və radio verilişlərinin ölkəmizin əldə etdiyi yüksək nailiyyətlər səviyyəsindən geri qalması, onların Azərbaycanın inkişaf dinamikasını əks etdirməməsi kimi acı bir reallığın da meydana çıxmasına səbəb olmaqdadır. Bunun kökündə dayanan mühüm məqamlardan biri isə akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, televiziyalarda biznes maraqlarının çox zaman ictimai, professional maraqlardan yüksəkdə dayanmasıdır.

Halbuki televiziyalar təkcə özünün kommersiya maraqlarının ardınca gedib, marketinq problemlərini həll etməməli, həmçinin auditoriyasının, xüsusən də uşaqların və gənclərin mənəvi cəhətdən zəngin formalaşmasında, vətənsevər, insanpərvər qalmasında yaxından iştirak etməlidirlər. Özü də uşaqlar və yeniyetmələr üçün hazırlanan müxtəlif səpkili maarifləndirici verilişlərin mövzu arealı istər təbiət, kainat, kosmos, sənət, heyvanlar və bitki aləmi ilə bitməməli, həmçinin coğrafi-tarixi anlamda məzmun daşımalı, keçmişə və gələcəyə işıq tutmalıdır.

Azərbaycanın efir məkanında özünü kifayət qədər qabarıq göstərən problemlərdən biri də xaricdə istehsal olunmuş filmlərin nümayişi ilə bağlıdır. Telekanallarda efirə gedən belə filmlərin təhlili onların iki aspektdən problem yaratdığını əyani şəkildə büruzə verir. Onlardan birincisi filmlərin dublyaj edilməsi, digərləri isə belə filmlərin janrı, əks etdirdiyi mövzularla bağlıdır. Məqaləsində bu kimi məsələlərə toxunan akademik Ramiz Mehdiyev yazır: *"Xüsusi qeyd edilməlidir ki, bu gün Azərbaycan televiziya kanallarında milli mentalitetimizə yad, mənəvi və əxlaqi dəyərlərimizə zidd film, serial və kliplər çoxluq təşkil edir. Yerli istehsal olan yeni müasir telefilmlərin olmaması ciddi problem kimi qalmaqdadır".*

Təcrübə göstərir ki, həqiqətən də televiziya vasitəsilə yayımlanan bir sıra xarici filmlər, xüsusən də qətl, ölüm, oğurluq, başqalarına işgəncə kimi filmdə əks olunan mövzular tez bir zamanda uşaqların əxlaq və davranışlarında özünün mənfi təsirlərini əks etdirir. Belə filmlər, ilk növbədə, uşaqların həssas, zərif ruhlarını güclü şəkildə təhrik edir və onlarda ruhi və cismi iztirablar, qəflətən qorxu və həyəcan yaradır. Digər tərəfdən, belə filmlərin ictimai zərərlərinə də biganə qalmaq olmaz.

Saf və məsum uşaqlar belə filmlərə tamaşa etdikcə, onların "qəhrəman"larını təqlid etməyə çalışır və hətta onlarda cinayətə əl atma hissləri də baş qaldırır. Bundan başqa, bu qəbildən olan bəzi filmlərdə, həmçinin serial və kliplərdə Azərbaycan mentalitetinə zidd olan səhnələr gənclərdə və yeniyetmələrdə bir mənəvi deqradasiyaya da yol açmaqdadır.

Akademik Ramiz Mehdiyevin məqaləsində telekanallarda vətənpərvərlik təbliğatına olan münasibət də reallığa uyğun təhlil edilib. Ərazilərinin 20 faizi işğal altında olan Azərbaycanda bu gün həqiqətən də çox ciddi vətənpərvərlik təbliğatına ehtiyac var. Ancaq sözügedən məqalədə deyildiyi kimi, yerli telekanallar əsas etibarilə müəyyən hərbi vətənpərvərlik verilişləri ilə kifayətlənməyə üstünlük verir və bununla qeyd olunan məsələdə öz işlərini bitmiş hesab edirlər. Özü də telekanallarda efirə gedən hərbi-vətənpərvərlik verilişlərinin səviyyəsi çox zaman tələb olunan standartlarda olmur.

Halbuki bu gün Azərbaycan gəncliyinin mənəvi yüksəlişi üçün vətənpərvərlik mövzusunda yüksək sənətkarlıqla hazırlanmış verilişlər olmalı, onların efir nümayişinin faiz dərəcələri heç də şou-biznes proqramlarının faiz göstəricilərindən geri qalmamalıdır. Bu, reallıqdır ki, həm sənətkarlıq, həm də ideoloji cəhətdən bu sahədə çox ciddi işlər görməyə ehtiyac var. Vətənpərvərlik məsələsinin, onun təbliğatının lazımi səviyyədə olmaması son nəticədə cəmiyyətdə gedən proseslərə mənfi təsir edir, cəmiyyətin bütövlüyünə, azərbaycançılıq ideologiyası ətrafında birləşməsinə, milli hisslərin, duyğuların ictimai səviyyəyə yüksəlməsinə imkan vermir.

Müəllif "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr" adlı yazısında problemləri söyləməklə yanaşı, onlardan çıxış yollarını da aydın göstərir. Bu isə sözügedən məqalənin eyni zamanda ictimai maraqları arxa plana keçirən, milli-mənəvi dəyərlərin aşılanmasında müstəsna rol oynayan televiziyalar üçün həm də proqram xarakteri daşıdığını təsdiqləyir. Həmin proqrama əməl etməyəcək telekanalların öz tamaşaçı auditoriyasını tam itirəcəyi şübhə doğurmur.

O da inkaredilməz reallıqdır ki, televiziyalar Azərbaycanla yanaşı, dünyada gedən prosesləri lazımi səviyyədə göstərməsə, obyektiv, əhatəli, xüsusi təhlillərlə seçilən informasiyalar verməsə, xalqımızın mədəniyyətini, incəsənətini lazımi səviyyədə təbliğ etməsə, onda istər-istəməz tamaşaçı başqa televiziyalara, o cümlədən sürətlə inkişaf etməkdə və əhatə dairəsini genişləndirməkdə olan kabel, peyk televiziyalarına müraciət etməli olacaq. Bu səbəbdən də indi televiziya kanalları özlərini keyfiyyətcə mükəmməlləşdirməli, professionallaşmalı, özlərinə məxsus bir üslub yaratmalıdırlar.

**Bununla əlaqədar akademik Ramiz Mehdiyev yazır: *"Televiziya kanallarının konsepsiyası, strateji hədəfləri, efir siyasəti ictimai maraqlarla uzlaşdırılmalı, cəmiyyətimizin saflaşması, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə töhfə verməlidir".***

**Tural ƏFƏNDİYEV,**
*fəlsəfə doktoru*

## Ədəbiyyat

1. R.Mehdiyev. Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. "Azərbaycan" qəzeti, 2 oktyabr 2009-cu il.
2. Y.Vəliyev. Gerçəkləşən arzular. "Mədəni-maarif işi" jurnal-2011-ci il, N2.
3. T.Vahid. "Mədəniyyət" kanalı fəaliyyətə başladı. "Mədəniyyət" qəzeti, 16 fevral 2011-ci il.
4. F.Xəlilzadə. Əxlaqımızın göstəricisi. "Azərbaycan" qəzeti, 13 avqust 2010-cu il.